# Qırğızıstanın dövlət kanalı "Azerspace-1" peykinin resurslarından istifadə etməyə başlayıb

Qafqazda yeganə peyk operatoru olan "Azərkosmos" ASC və Qırğızıstanın İctimai televiziyası olan KTRK kanalı arasında müqavilə imzalanıb.

Səhmdar Cəmiyyətindən AZƏRTAC-a bildirilib ki, müqaviləyə əsasən, Qırğızıstanın İctimai Televiziya kanalı olan KTRK kanalı "Azerspace-1" peykinin resurslarından istifadə etməyə başlayıb. Bu, Qırğızıstan bazarında imzalanan ilk müqavilə olması baxımından "Azərkosmos" üçün böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, Qırğızıstanın digər kanalları da "Azerspace-1" peykinə maraq göstərir və bu kanallarla müqavilələrin imzalanması üçün danışıqlar aparılır.